

# Qızılbaş metafizikası,

## Mozaik risalə

İlqar Fəhmi

*Kitabdan fraqmentlər*

7-ci hissə

### Güzgü

Şirazda, Şeyx Əbuzərin türbəsində Səfiəddinin başına gələn daha bir maraqlı hadisə də nəql edilir.

Rəvayətə görə, məscidin tanınmış ruhanilərindən biri Şeyx Əbuzərin qəbrinin ziyarətinə gələrkən, orda bir küncdə zikrlə məşğul olan gənc Səfiəddini görür. Onun çöhrəsi ruhaninin diqqətini cəlb edir, bir müddət dayanıb onun üzünə baxır, nəhayət, dillənir ki, "Yeri, amadə (hazır) ol kim, üç gündən sonra ikindi namazına yetməyib, bəlkə günorta namazı çağı dünyadan köçüb axirətə varacaqsan."

O şəxs bu sözü deyib türbədən çıxır, və Səfiəddin kədər dəryasına qərq olur, amma ölümdən qorxduğuna görə yox, "mürşidə yetmədən, məqsudi hasil olmadan aləmdən varacağı üçün."

Məsçidin qulluqçuları, ordakı sufilər, taliblər də məsələdən agah olub bildirirlər ki, "həmin pirin ağzı faldı, əgər dedisə, deməli həqiqətən də, sənin üzündə əcəl gölgəsini görübdür. sənin axirət aləminə köçmək vaqtin yetibdir..."

Beləcə, sakitcə taleyinə təslim olan Səfiəddin iki gününü ibadətlə, itaətlə keçirdir, üçüncü gün isə günorta namazından sonra kəlmeyişəhadətini oxuyaraq, Şeyx Əbuzərin türbəsində ölümə hazır vəziyyətdə oturub Əzrayılı gözləməyə başlayır...

Amma şam namazına qədər Əzrayıldan səs-səmir çıxmır. Birdən məscidin ruhani pirlərindən biri içəri girir və Səfiəddini görüb ona yaxınlaşır, halındakı qəribəliyi görüb soruşur ki, "Ey ibadətlü türk, neşün məlulxatir oturubsan və könlün nədən məşğuldur?"

Səfiəddin cavab verir ki, "Bir övliya üç gün əqdəm gəlib mənim ölümüm xəbərini söylədi. İmdi dedüginə mühəyya olubəm kim, haçan Tanrı əmri yetişib, canın əmanətini yiyəsinə tapşırım."

Gələn şəxs bir müddət Səfiəddinin üzünə baxır, sonra qəribə şəkildə gülümsünüb deyir ki, " Qayğu yeməyib qalx kim, ol sözü söyləyən kişi özü Tanrı rəhmətinə gedibdür, qalx kim anun cənazəsinə varub, namaz qılalum."

Səfiəddin heç nə başa düşməyərək pirin dediyinə əməl edir, qalxıb birlikdə türbədən çıxırlar, gəlib həmin məşhur övliyanın dəfnində iştirak edirlər, yalnız bütün dəfn mərasimi bitdikdən sonra Səfiəddin onu bura gətirən pirdən soruşur ki, "bu nə hal idi kim , ol kişi mənim ölümüm xəbərini verdi, fəqət vədənin tamamında özü öldi?"

Qoca ruhani yenə Səfiəddinin üzünə baxır, mənalı şəkildə başını yelləyib, Peyğəmbərin məşhur hədisini deyir: "Əl mümin miratul mümin." (Mömin möminin güzgüsüdür.)

Səfiəddin heç nə başa düşməsə də, qoca ruhanidən əlavə nəsə soruşmağa utanır, başını aşağı salıb gedir.

(Yalnız illər sonra Şeyx Zahid Gilaninin müridi olarkən, bu hadisəni ona danışan Səfiəddin öz mürşidindən həmin hadisənin belə bir təbirini eşidir.

"Həmin övliya sənin həqiqətən saf mömin olduğunu bilməyib, elə zənn edib ki, türbədə dolaşan səfillərdənsən. O səbəbdən də sənin üzündə əcəl kölgəsini görüb, elə güman edib ki, ölüm vaxtın çatıb. Ancaq sənin həqiqi mömin olduğunu bilsəydi, anlardı ki, əslində sənin üzünün ayinəsində əks olunan elə onun özünün surətindəki əcəl kölgəsiymiş. Çünki, peyğəmbər buyurmuşkən, mömin möminin güzgüsüdür.")

### Üçüncü Şeyx

Səfiəddin Şeyx Əbuzərin türbəsində olarkən xeyli sayda dərvişlər, saliklər onun görüşünə gəlir, ona öz ehtiramını bildirir, təbərrüklər gətirir, mənəvi-ruhani söhbətlər edirdilər. Hətta onun hörməti o həddə çatır ki, onu fiqhi mənsəblərdən birinə təyin etmək istəyirlər, lakin görürlər ki, Səfiəddin "yuxarı aləmin sevdasına ol qədər varub ki, aşağı aləmin fikrinə müstəğni olub, (ikrah edib, laqeyd qalıb)".

Səfiəddin özü də bu müddət ərzində Şirazın tanınmış pirləri, mürşidləri, övliyaları, alimləriylə görüşür, ürək dostunu tapmağa çalışırdı.

Səfiəddin həmin vaxtlarda hətta məşhur sufi şairi, təkyə mürşidi Şeyx Sədi Şirazinin yanına da gedib-gəlir, bir neçə dəfə onunla həmsöhbət olur, lakin istədiyini hasil edə bilmir.

Müridlər bu dəfə ona Şirazda yaşayan məşhur sufi Əmir Abdullahla görüşməyi məsləhət edirlər. Bildirirlər ki, əgər sənin müşkülün açılsa, yalnız Əmir Abdullah əliylə açılar çünki onun "mərtəbəsi ikən ucadur, riyazət və ibadətdə, zöhd və taətdə bəğayət məşğuldur və nəsəbi zahir və itrəti tahirdir."

Bundan sonra artıq ikinci dəfə Səfiəddinin ürəyində ümid qığılcımı parlayır, inanır ki, içindəki halların və əhvalların təbirini Əmir Abdullah verər, onu bu ağır düşüncələrdən qurtarıb həqiqət yolunda düz istiqamətləndirər...

Öz təkyəsindəki xəlvətxanədə Əmir Abdullahı tapan Səfiəddin onunla görüşmək izni alır və hüzurunda oturub uşaqlıqdan bəri içindən keçən qəribə halları, gözünün qabağından ötən görüntüləri, gördüyü qeyri-adi yuxuları, qulağına gələn səsləri, daha sonra Tanrı sözüylə təkbətək qaldığı uzun zikr və taət gecələrində yaşadığı hiss və duyğuları tələsmədən ona danışır...

Əmir Abdullah bir neçə saat ərzində sakitcə Səfiəddini dinləyir, onun bütün danışdıqlarına diqqətlə qulaq asır, nəhayət, bildirir ki, "Ey taətli türk, bizim himmətimizin quşu buraya qədər uçmayubdur. Əgər kəşf ilə qədəm istərsən, bu vilayət hasil olur. Amma sənin istədiyin mətə (məhsul) bu bazardan ələ girməz, çün sənin dedügün o ali hallardan biz bixəbərüz.

Həzrət çün mətlubindən naumid qaldı, gözlərindən həsrət yaşın axdurub, ah-vay ilə ağladı və dedi ki, hamı dustlar və övliyalar mənə səni həvalə qıldılar kim, işim sənin qulluğunda açılacaqdur.Səndən dəxi umduğum hasil olmadı, şimdi mənüm tədbirüm nədür?

Əmir Abdullah çün Səfiəddinin iztirabın gördi, dedi kim, ey taətli türk, aləmin Şərqindən Qərbinəcən kimsə kim sənin vaqiələrin təbirini müşkil işlərin həll qıla, kimsə yoxdur, Şeyx İbrahim Zahid Gilanidən başqa..."

Beləcə, Səfiəddin ilk dəfə Şeyx Zahid Gilaninin adını eşitdi. Bu ona məsləhət görülən üçüncü övliya idi. (Şeyx Nəcibəddin Bozquşludan və Əmir Abdullahdan sonra).

### Tələskənlik

Yuxarıda Əmir Abldullahın dilindən bir kiçik ifadə eşitdik - " Sən kəşf ilə qədəm istərsən." Bu kəlmə əslində Səfiəddinin içindəki hiss və duyğuların əsas mahiyyəti barədə məlumat verir. Səfiəddin mənəvi inkişaf yolunda Kəşfi-şühud arzulayır, yəni İlahi həqiqətləri bəsirət gözüylə batini müşahidəsini istəyirdi. Lakin cox tələsirdi. Öz beynini və cismini vaxtından əvvəl ağır yüklə yükləyirdi.

Məncə, burda bir qədər ətraflı izaha ehtiyac var.

İrfan yolçuluğunda baş verən prosseslər əslində bir çox dünyəvi proseslərlə oxşar cərəyan edir, yəni tam da olmasa, nisbi analogiya aparmaq olar. Çünki söhbət metafizik-mistik müstəvidən getsə də, mahiyyətdə əsas aparıcı qüvvə insan ruhudur. Ruh isə əksər hallarda eyni qanunlarla hərəkət edir.

Həyatın müxtəlif sahələrində belə hallar çox rast gəlirik: istənilən bir enerjili gənc hansısa peşəyə, sənətə, elmə, fənnə həddən artıq böyük səylə başlayırsa, ilkin mərhələdə problemlər yaşayır. Hələ beyninin və ruhunun hazır olmadığı informasiyanı qəbul etməyə can atır, və buna müvafiq olmayanda, içində gərgin depressiv hallar yaşanır, tərəddüdlər yaranır, psixoloji gərginliklər baş verir...

Misalçün, həmişə ulduzlu səmaları sevib, astronomiya eşqiylə alışıb-yanan bir uşaq 1-ci sinifdə oxumağı öyrənən kimi 10-cu sinfin astronomiya kitablarını tapır, səylə oxuyur, dərk eləməyə çalışır, başına bir şey girməyəndə əsəbləşir, dilxor olur, özünə inamsızlıq yaranır...

Niyə? Çünki 10-cu sinfin astronomiya kitabını anlamaq üçün əvvəlcə beşinci sinifdə fizikanı, altıncı sinifdə kimyanı, daha sonra başqa elmləri öyrənmək lazımdır ki, 10-cu sinifdə Astronomiya elmi öz qapılarını səninçün açılmaz.

Eyni halı dini elmlərlə maraqlanmağa başlayan gənclərə də şamil etmək olar. Heç bir əqli-mənəvi hazırlığı olmayan gənclər Səmavi kitablara birbaşa müraciət edərsə, təbii ki, ordan istədiyini hasil edə bilməz və yaxud yanlış nəticələr çıxardar ki, bunu da həyatda çox müşahidə edirik...



İrfan yolçuluğunda baş verən prosseslər əslində bir çox dünyəvi proseslərlə oxşar cərəyan edir, yəni tam da olmasa, nisbi analogiya aparmaq olar.

Səfiəddin də eyni vəziyyətdəydi. Daxilindəki "bilmək" enerjisi aşıb-daşırdı, amma addım-addım getməyə səbri çatmırdı, qaçmağa çalışırdı - öz əqlini həddən artıq ağır fikirlərlə doldururdu (ən böyük ilahiyyatçı alimləri, filosofları düşündürən məsələlər üzərində fikirləşirdi), öz cismini hədsiz ağır riyazətlə yükləyirdi (il boyu gündüzlər oruc tuturdu, taətlər edərdi, kiçicik iftardan sonra gecələr ibadətlərə-zikrlərə qapanardı, həftələrlə yatmırdı...), dünyadan bu cür əl üzüb inzivaya çəkilməklə, səy edirdi ki, içindəki bəsirət gözünü açsın, bütün həqiqətləri birdən bilsin... Ancaq başa düşmürdü ki, əqlinə, ruhuna, orqanizminə bu cür qatı əziyyətlər vermək mənəvi yüksəliş yolunun sonrakı mərhələlərinə aiddir. Onunçünsə hələ tezdir...

Bütün bu "bilmək" prssesi uzun illər davam edən daxili mistik təcrübələrin, yəni kəşfi-şühudun nəticəsində hasil olur. Hələliksə onunçün ən ilk addım öz əcaib vaqeələrini, görüntülərini, hiss və duyğularını nizama salmaq, daxilində ruhani rahatlıq və mənəvi müvazinət yaratmaq olmalıydı. (sonradan da bəlli olduğu kimi, Səfiəddin Şeyx Zahidin yanında uzun müddət - təxminən 25 il qalandan sonra müəyyən mənəvi qapılar onunçün açılmağa başladı və övliyalıq mərtəbəsinə yüksəldi.

Bütün bu həqiqətləri isə ona məhz mürşid anlatmalı idi. Bəs sual olunur ki, əvvəl söhbət etdiyi övliyalar, pirlər, mürşidlər niyə onu qane etmirdi, niyə onu düz yola gətirə bilmirdilər?

(Nədənsə bu sualı düşünərkən, xatirimə yaxın keçmişdə muğam mühitindəki bir faktı xatırladım. 90-cı illərdə Azərbaycanda çoxsaylı tanınmış, böyük xanəndələr vardı ki, həm peşəkar fəaliyyətlə məşğul idilər, həm də dərs deyirdilər. Lakin əksər sənətkarlar etiraf edirdi ki, konservatoriyada Nəriman Əliyev kimi pedoqoq yoxdur. Xanəndə yetişdirməkdə onun tayı-bərabəri tapılmaz... Eyni halı başqa sahələrdə də müşahidə etmək olar.)

Burda gəlib müasir pedaqoqikanın sərhədlərinə çıxırıq. Niyə kimlərsə böyük sənətkar olsalar da, tələbə yetişdirə bilmir, kimlərsə buna nail olurlar? Pedaqogika elmində bunun incəlikləri gözəl şəkildə izah olunur. Burda xüsusi səbir, intuisiya, müşahidə qabiliyyəti və sair psixoloji keyfiyyətlər vacibdir ki, bunlar olmasa, pedoqoq öz fəaliyyətini uğurla həyata keçirə bilməyəcək... Eyni zamanda peda-

# Səfəvi mistikası

**Psixoloqların yazdıqları içində ən maraqlı cəhət bundan ibarətdir ki, hər bir şəxs, əsasən də dərin təfəkkür və istedad sahibi əslində bütün ömrü boyu o bir nəfəri gözləyir, axtarır - rejissor öz aktyorunu, ssenarist öz rejissorunu, bəstəkar öz ifaçısını, məşqçi öz idmançısını, alim öz tələbəsini və sair və ilaxır.**

qoqların da hər birinin özünün fərdi tədris metodikası var ki, tələbə də öz xarakterinə uyğun metodikayla işləyən pedaqoq seçərsə, daha böyük uğur əldə eləmiş olar. Yaxud da əksinə, pedaqoq tələbə seçərkən, öz metodikasına xarakterçə uyğun olan tələbələri götürür... (hərçənd ki, son illərdə bu məsələ bir qədər qarışıb, ona görə də bir çox sahələrdə durğunluqla üz-üzə qalırıq.)

Mənəvi-irfani yüksəliş yolunda olan Pirü mürşidlərin də heç də hamısı həmin dediyimiz böyük pedoqoji istedada sahib deyildilər və yaxud Səfiəddinin istedad və xarakterinə uyğun metodikayla fəaliyyət göstərmirdilər, ona görə də Səfiəddinin ünsiyyəti onlarla tutmurdu, tez aralanırdı...

Bir az gələcəyə qaçıb, deyim ki, bütün bu yazdıqlarımız mətləbləri, Səfiəddinlə görüşəndən sonra Şeyx Zahid Gilani bir kəlmə poetik sözlə ifadə etmişdi. Onun təkyəsində müridliyə başlayandan sonra, bir dəfə söhbət əsnasında Səfiəddin Şeyx Zahiddən soruşmuşdu ki, bu necə olur axı, Şirazda hamı mənə məşhur sufi Pir Əmir Abdullahla görüşməyi məsləhət görürdü, hamı deyirdi ki, mətləbin yalnız ondan hasil olar, Əmir Abdullah elm sahibidi, böyük sufidi, ağır övliyadı. Ancaq o məni iki saat dinlədikdən sonra, sizi nişan verdi, dedi ki, sənin çarəni ancaq Şeyx Zahid Gilani bilir, onun yanına get... Hərçənd ki, Əmir Abdullah sizdən daha məşhurdu, daha böyük nüfuz sahibidir...

Bu sözləri dinləyən Şeyx Zahid Gilani çox gözəl bir kəlmə ilə məsələni bağlayır: "Əmir Abdullah atludurur, ancaq atlanduramaz."

Kəlmənin hikmətinə varaq. Əgər bir insan atlıdırsa, yanındakı piyadaya ata minməyi öyrətməkçün gərək müvəqqəti də olsa atdan ensin, onun kimi piyada olsun. Pedaqogika diliylə desək, müəllim öz tələbəsinin düşüncə səviyyəsinə enib, aşağıdan ona informasiya verməli, yardımçı olmalıdır. Yəni, onun dilində danışmalıdır. Bu isə o qədər asan deyil,

At belində olan adam əgər öz gedəcəyi mənzilə tez çatmağı, ordan feyz almağı fikirləşirsə, o heç vaxt kimisə ata mindirməkçün vaxt itirib atdan enməz. Necə ki, çoxsaylı alimlər, sənətkarlar tanıyırıq ki, ali, akademik səviyyədə gördüyü ağır , böyük işlərə fasilə verib, tələbə yetişdirməyə enerji sərf etmir, hətta bəzən bunu özü üçün artıq vaxt itkisi sayır.

Eyni halı irfan müstəvisində də müşahidə etmək olar ki, bunu da Əmir Abdullahın vəziyyətini təsəvvür edərkən Şeyx Zahid bir kəlmə ilə ifadə etmişdi - "...atlıdır, ancaq atlandıra bilməz."

Daha sonra Şeyx Zahid gənc Səfiəddinə öz fikrini izah edərək deyir ki, "...əgər Əmir Abdullahın elə bir mənəvi mərtəbəsi var ola idi ki, səni tərbiyət etməyə kifayət edərdi, səni rədd eyləməkdə, sənə zülm qılmış olardı... Və əgər onda dəxi həmin mərtəbə var ola idi, mən səni qəbul eyləməyüb yenidən geriyə, anun yanuna göndərir idüm, çün Allah-təala Quranda buyurub ki, İnnəllah yamürüküm ən təəddül əmanatə ila əhliha." (Allah sizə əmanətlərinizi öz sahiblərinə qaytarmağınızı əmr edər. Nisa. 58)

## Tanrı divanı

Beləliklə, Əmir Abdullahın təkidiylə Səfiəddin Şirazla vidalaşıb Gilana üz tutmaq qərarına gəlir... Səfər tədarükü görür və xudahafizləşməkçün Sədi Şirazinin yanına təşrif buyurur. Uzun və şirin söhbətdən sonra Şeyx Sədi Şirazi səfər üstə olan Səfiəddinə xələtlər təqdim etmək istəyir, müridləri müxtəlif hədiyyələr gətirirlər, lakin Səfiəddin bunların heç birini qəbul eləmir. Sonda Şeyx Sədi özünün ən qiymətli kitabını - şəxsən üzünü köçürtdüyü Divanını hədiyyə kimi Səfiəddinə bağışlamaq istəyir... Səfiəddin bunu qəbul etmək istəsə də, düşünür ki, Şeyx Sədi, şəksiz, hər dəfə böyük divanının şəxsən öz əliylə üzünü köçürdüb saxlayan deyil və məhz bu kitab, yəqin ki, bu təkyədə olan ən nadir, ən qiymətli nemətdir. Bu səbəbdən götürməyə ürəyi gəlmir. Ancaq necə imtina etsin ki, Şeyx Sədinin könlünə toxunmasın? Və gənc Səfiəddin üzünü ustad şairə tutub yavaşca deyir ki "Tanrının divanından könlüm ol qədər doludur ki, özgənin divanı anda sığmaz."

Bu söz Şeyx Sədinin o qədər xoşuna gəlir ki, gözləri dolur, uzun müddət dodaqaltı öz-özünə bu sözləri təkrar edir, gözünün yaşı axır...

(Məşhur klassik şairimiz Şah Qasimi Ənvar özünün "Ənisül-Arifin" (Ariflərin dostu) poemasının bir fəslində bu rəvayəti - Şeyx Sədinin dediklərini və Səfiəddinin ona cavabını şeirlə bu cür təqdim edir...

*- Dedi ki, sən sahibsən*
*mənə xəzinəsinə,*
*Fikir aləminin də çıxmısan zirvəsinə.*
*Dediyin yüksəkdəki o mənə yuvasına*
*Acizdir Sədi quşu,*
*çatmaz heç zaman ona.*
*Ürəyim dərdlə doldu*
*sənin dediklərindən,*
*Acizəm hisslərivi*
*dərk eyləmədiyimdən.*
*Lakin istərsən əgər,*
*öz şeir divanımdan*
*Bir neçə inci seçib,*
*verərəm öz varımdan.*
*-Dedi ki, candır bizim*
*yalnız son əlacımız,*
*Qeyriyə ondan daha*
*yoxdu ehtiyacımız.*
*Haqqın divanı ilə*
*doludur bu ürəyim,*
*Başqa bir divana heç*
*yoxdur mənim diləyim.*
*Onun dərdiylə biz ki,*
*vilayətə çatmışıq,*
*Həm bu canı atmışıq,*
*həm dünyanı atmışıq...")*

* * *

Nəhayət, səfər öncəsi qardaşı Xacə Səlahəddin Rəşidin yanına gələn Səfiəddin təvəqqe edir ki, qısa bir müddətə də olsa, qardaşı Ərdəbilə qayıtsın, analarını həsrətdə qoymasın. Ancaq qardaşı Şirazda böyük mənsəb sahibi olduğundanmı və ya bəlkə də, Səfiəddinin bu müddət ərzində ona baş çəkməyə gəlmədiyindən inciyərəkmi, bu təkliflə razılaşmır, bildirir ki, vaxtı yoxdur. Əvəzində hədiyyələrlə dolu kiçik bir karvan hazırlayır ki, Səfiəddinlə birlikdə Ərdəbilə getsin, bu hədiyyələri anasına təqdim eləsin...

Ertəsi gün yola çıxırlar. Bütün yol boyu Səfiəddin karvanın arxasınca piyada gəlir, nə onların yedi-yindən yeyir, nə geydiyindən geyir. Gəlib Ərdəbilə çatırlar, Səfiəddin qardaşının hədiyyələrini anası Dövlət xatuna təslim edir...

Beləcə, Səfiəddinin ilk - zahiri (fiziki-maddi) səfəri başa çatır.

Qarşıda isə onu daha ağır, amma ağır olduğu qədər də maraqlı - daxili (metafizik-ruhani) səfər gözləyirdi. Daxili səfərin yolu isə Gilandan - Şeyx Cüneyd Bağdadidən sonra silsilə etibariylə doqquzuncu təriqət rəhbəri olan Şeyx İbrahim Zahid Gilaninin təkyəsindən keçəcəkdi....

## Birinci fəslin epiloqu

İstənilən böyük şəxsiyyətin - alimin, sənətkarın, qələm sahibinin, pedoqoqun həyatına fikir versək, görərik ki, bütün yetirmələri, ardıcılları arasında bir nəfərə xüsusi mənəvi bağlılığı olur; bu bir nəfərə o birilərdən daha çox vaxt və enerji sərf edir, onun uğurlarına daha çox sevinir, uğursuzluqlarına daha çox kədərlənir (Hətta ailədədaxili münasibətlərdə də bunu müşahidə etmək olar).

Yaradıcılıq psixologiyasıyla və psixoanalizlə məşğul olan müasir alimlərin əksəriyyəti bu halı analiz edərkən belə fikrə gəlirlər ki, ustad sanki məhz həmin tələbəsində öz gəncliyini görür və özünün gəncliyində edə bilmədiklərini, yaxud hansı səbəblərdənsə nail ola bilmədiklərini ondan umur, ondan gözləyir... Müasir Qərb psixoanalitikləri bu psixoloji halın mənbəyini ibtidai icma quruluşunda hər tayfa, ailə başçısının özünə varis seçmək, öz yerinə kimisə hazırlamaq ehtiyacıyla bağlayır. Və təbii ki, hər tayfa-ailə başçısı təhtəlşüur səviyyəsində özündən sonra öz yerində məhz özü kimi birisinin olmağını arzulayır. Buna görə də namizədlərin arasında özünə çox bənzəyənini axtarır.

Yaradıcılıq psixologiyasıyla məşğul olan digər alimlər isə burda məşhur psixi hadisə kimi qəbul olunan "güzgü effekti"ni önə çəkir və bəyan edirlər ki, hər insanın içində, rəngindən mənsəbindən asılı olmayaraq, özünü kənardan görmək - özünün ikinci tayını tapmaq, və yaxud "özündən daha biriylə rastlaşmaq" istəyi vardır ki, bu istək uşaqlıq dövründə daha çox üzə çıxır, yaş keçdikcə isə təhtəlşüura oturuşur...

Məşhur türk yazıçısı Orxan Pamuk "İstanbul -xatirələr və şəhər" kitabında öz uşaqlıq xatirələrini bölüşərkən bu "güzgü effekti"ni təxminən bu cür təqdim edir; Hiss edirdim ki, İstanbulda mən tək deyiləm, mən inanırdım - bu inam indiyə qədər qalıb ki, bu dar küçələrin labirintlərində eynən bizim evə oxşayan hansısa başqa bir evdə sifətdən əkiz kimi mənə bənzəyən Orxan adlı başqa bir uşaq da var, o mən boydadır, mən yaşdadır, bütün həyatı mənim həyatımın təkrarıdır."

Psixoloqların yazdıqları içində ən maraqlı cəhət bundan ibarətdir ki, hər bir şəxs, əsasən də dərin təfəkkür və istedad sahibi əslində bütün ömrü boyu o bir nəfəri gözləyir, axtarır - rejissor öz aktyorunu, ssenarist öz rejissorunu, bəstəkar öz ifaçısını, məşqçi öz idmançısını, alim öz tələbəsini və sair və ilaxır. Niyə? Çünki onlarla-yüzlərlə insanın içində öz ruhunu, qəlbini tam başa düşüb anlayan "ikinci mən"in varlığı faktı dərin təfəkkür, istedad sahibi olan insanın bu dünyadakı mənəvi tənhalıq qarşısında qorxusunu aradan qaldırmış olur.

(*Xahiş edirəm, qadın-kişi arasında olan "yarısını axtarmaq" tendensiyası ilə qarışdırmayaq*).

Və axtarılan insan tapılanda, iki qəlb arasında dediyimiz mənəvi bağlılıq yaranır, təhtəlşüurdakı tənhalıq hissi yox olub gedir, psixika öz müvazinət halına qayıdır...

Mənsə müsir psixoloqların fikir və düşüncələrini metafizik müstəviyə gətirərək, belə deyərdim ki, bu cür mənəvi bağlılıqların təməli hələ bu dünyamızdan kənarda - Qeyb aləmində qoyulur. Səbəb bizə məlum deyil.

Çünki bəzi rəvayətlərdən görünür ki, insan öz "ikinci mən"i ilə hələ görüşməmişdən də əvvəl, aralarında hansısa mistik rabitə olur. Bəzən görümlər vasitəsiylə, bəzən yuxular vasitəsiylə...

Bu rabitə Kvant fizikasında "elementar zərrəciklərin dolaşıqlığı" fenomeninə çox bənzəyir.

(Kvant fizikasında belə bir təcrübə var ki, eyni anda yaranan elementar zərrəciklər arasında elmə məlum olmayan qəribə bir bağlılıq olur ki, ayrılaraq dünyanın hansı yerinə düşsələr də, onları bir birindən nə qədər məsafə ayırsa da, bir zərrənin halı o birinin vəziyyətinə təsir edir, bir zərrənin dəyişikliyi o andaca digər zərrədə təzahür edir. Fiziklər səbəbi məlum olmayan bu təzahürə "Kvant dolaşıqlığı" adını qoyublar.)

Rəvayətə görə, hətta Səfiəddin gəlib çıxmamışdan əvvəl də, Şeyx Zahid öz müridlərinə deyirmiş ki, "bir kəpənəkli igid bizim tələbimizdə sərgərdandır və onunla Həqq arasında bircə hicab qalıbdır..."

Şeyx Zahidin hüzuruna gələn Səfiəddin onun əlini öpüb üz qoyur və hiss edir ki, bu dəfə üzü qeyri-ixtiyari yana çevrilmədi... Başa düşür ki, istiqamətləndiyi bu üçüncü mürşid məhz onun axtardığıdır.

Özünü saxlaya bilməyib fikirlərini şeyxə bildirir, deyir ki, "tələb çağında kim, hər pirə kim yetərdim, anın əlini dutub tövbə qılmağ istərdim, üzüm anın üzündən dönərdi, macal olmazdı kim əlini öpüm, üzünü yaxşıca görəyim. Amma çün həzrət Şeyxin hüzuruna yetdim, bu mənə vaqe olmadı, üzüm sənin üzündən dönmədi. Ol dönmək nədir, bu dönməmək nə vaqeədir?"

Şeyx Zahid ona cavab verir ki, "Ərdəbillü, mənim sifətim səninlən bilə idi, sən mənimki idün, Özgə kimsənə necəlik səni avlaya idi?"

Səfiəddin də soruşur ki, "əgər sənin sifətin mənimlə idi, neçin məni bu qədər müddət həyat suyunun tələbində sərgərdan qılırdun?"

Şeyx Zahid də bildirir ki, "əgər sərgərdanlıq çəkmədən səni məqsudinə yetirəydim, onda sənin nəfsin dəğdəğə eylərdi kim, bu müamilə dəxi özgə yerlərdə də var. O qədər səni gəzdirdim ki, məlumun ola kim, axtardığın mənə özgə yerlərdə yoxdur, sənin qismətin buradır..."

Şeyx Zahid daha sonra elə müridlərin yanındaca, Səfiəddinin əvvəllər gördüyü yuxuları, vaqeələri ona danışır və məlum olur ki, bütün bu müddət ərzində Şeyx Zahid müxtəlif timsallarda onun yuxularına vaqeələrinə gəlib, onu istədiyi kimi istiqamətləndirirmiş... Öz yuxularını Şeyxin dilindən eşidən Səfiəddin heyrət içində də anlayır ki, daima yuxularında gördüyü, amma üzünü dürüst yadda saxlaya bilmədiyi həmin pirani şəxs məhz elə Şeyx Zahid imiş. Bundan sonra içində heç bir şəkk-şübhə yeri qalmır.

Beləcə 60 yaşlı Şeyx Zahid də, yuxarıda qeyd etdiyimiz kimi, özünün illər boyu gözlədiyi "ikinci mən"ini - ruhunun güzgüsünü tapmış olur, 25 il onun təlim və yüksəlişiylə məşğul olur, onun bəsirət gözünün tam açılmasına çalışır və nəhayətdə, ölüm ayağında olarkən, bəzi ardıcıllarının etirazına rəğmən səccadəsini öz doğma oğluna yox, məhz Səfiəddinə verir, özündən sonra onu təriqət Şeyxliyi rütbəsinə yüksəldir...

Ancaq buna qədər Səfiəddini qarşıda hələ uzun illərin ağır, mistik təcrübələri gözləyirdi.

**Birinci fəslin sonu...**

*Ardı var*